KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 10 (158), 19 - 25 Mart, Adar - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye, 40 qəpik

## XALQIMIZI NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİRİK!

## CEJNA GELÊ ME YA NETEWÎ NEWROZ PÎROZBE!



Səh. 2

### Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi



Səh. 4

### Bərzani: "Kürdlərin sülh mesajını bütün dünyaya çatdıracağıq"

### Халабджа и конец ее убийц

Səh. 14

### Türkiyədə kürd dilində təhsil olacaq

Səh. 3



Səh. 10

### 'Newroz starta referandûmê ye'



Səh. 15

### Ахмед Турк: Все курдские партии вместе отпразднуют Науроз



Səh. 9

### Newroz yasak dinlemez



Səh. 12

### Neçîrvan Barzanî û Îmad Ehmed seredana Komela Îslamî kirin



Səh. 6

### LAÇINDA




Səh. 12

### Zêdetirî mîlyon kes çûne Qada Newrozê



Səh. 16

### Курдский флаг официально признан в Бельгии



Səh. 6

### Ənfal

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə can sağlığı, səadət və uğurlar arzulayıram. Novruz bayramı xalqımızın ən sevimli bayramlarındandır. Azərbaycan torpağında həmişə əziz tutulan bu bayramın verdiyi tükənməz mənəvi güc sayəsində biz yüzillərdən bəri keçmişimizin çətin və mürəkkəb dövrlərində nikbinliyimizi qoruyub saxlamış, gələcəyə daim ümidlə baxmışıq. Novruz ənənələrinin layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Ən ali bəşəri keyfiyyətləri özündə toplayan böyük mənəviyyat və hikmət xəzinəsi olaraq Yaz bayramı tarixi-mədəni irsə bağlılığımızı parlaq nümayiş etdirir.

Dövlət müstəqilliyimizin bərpasından ötən illər ərzində azad ölkəmizin öz taleyini arzularına uyğun qurmağa müvəffəq olması belə əziz günlərdə insanlarımıza əsl bayram əhval-ruhiyyəsi bəxş edir. Hal-hazırda həyatımızın bütün sahələrində baş verən müsbət dəyişikliklər hər birimizdə dövlətimizin gələcək illərdə də yüksək zirvələr fəth edərək dünyanın qabaqcıl ölkələri səviyyəsinə çatacağına böyük inam, dərin qürur hissi və ruh yüksəkliyi yaradır. Novruz bayramının qəlblərdə quruculuq əzmini artıran yeniləşdirici ab-havası bizi müasir güclü dövlət və sosial rifah cəmiyyətini tam bərqərar etmək məqsədlərimizə sürətlə yaxınlaşdırır.

Bu günlər bütün əzizlərimizin, həmçinin Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü yolunda canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bir daha ehtiramla yad olunur. İnanıram ki, yurdumuzun hərtərəfli inkişafı yolunda əldə etdiyimiz hər yeni zəfər şəhidlərimizin ruhunu şad edəcəkdir. Ölkəmizin hüdudlarından kənarda, qürbətdə olub ürəyi hər an Vətən məhəbbəti ilə döyünən, milli həmrəylik duyğusu ilə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşən soydaşlarımıza bayram salamlarımı yetirirəm. Xalqımızın bu baharı da öz gəlişiylə qoy hər evə, hər ocağa bol ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 mart 2012-ci il.*

## İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul etmişdir



Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının xarici işlər naziri Guido Vestervelleni qəbul etmişdir.

Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlərin geniş sahələri əhatə etdiyini və yaxşı əməkdaşlığımızın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı xarici işlər naziri Guido Vestervellenin ölkəmizə səfərinin tərəfdaşlığımızın daha da gücləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Almaniya Federativ Respublikasının xarici işlər naziri Guido Vestervelle ölkəmizdə keçirdiyi görüşlər barədə Prezident İlham Əliyevə məlumat verdi. Diplomatik əlaqələrimizin bu il 20 ilinin tamam olduğunu vurğulayan Almaniyanın xarici işlər naziri Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlığın əhəmiyyətini qeyd etdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İlham Əliyev "Bakıelektrikşəbəkə" ASC-nin "Gənclik" və "İçərişəhər" yarımstansiyalarının açılış mərasimlərində iştirak etmişdir

Prezidenti İlham Əliyev "Bakıelektrikşəbəkə" ASC-nin "Gənclik" yarımstansiyası, Tədris Mərkəzinin və "İçərişəhər" yarımstansiyasının açılış mərasimlərində iştirak etmişdir.

"Bakıelektrikşəbəkə" ASC-nin idarə heyətinin sədri Baba Rzayev yeni inşa olunan "Gənclik" yarımstansiyası ilə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində paytaxt və ətraf qəsəbələrin dayanıqlı elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Elektrik enerjisi sahəsində görülən işlərin nəticəsi olaraq artıq "Bakıelektrikşəbəkə"də dairəvi təchizat sxeminin tətbiqinə başlanıb. Dairəvi sxemin tətbiqi paylayıcı və ötürücü şəbəkənin etibarlılığı və dayanıqlığını artırmaqla yanaşı, operativliyi də təmin edir. Bu sistemin başlıca üstünlüklərindən biri də istənilən vaxtda istehlakçıları elektrik enerjisi ilə tam təmin etmək imkanlarına malik olmasıdır. Son bir neçə ildə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində "Bakıelektrikşəbəkə" dairəvi təchizat sxeminin formalaşdırılmasına nail olub.



Yaxınlıqdakı ərazidə yerləşən bir sıra obyektləri elektrik enerjisi ilə qidalandıracaq "Gənclik" yarımstansiyası "Səngəçal"-"Xırdalan" sistem yarımstansiyaları arasında yaradılmış 110 kilovoltluq iki şüalı, Bakı II dairəvi elektrik sxeminin tərkib hissəsidir. Qeyd olundu ki, Gənclik meydanı və ətraf ərazilərdəki idarə və müəssisələrin enerji təminatını yaxşılaşdırmaq məqsədi ilə tikilən 35/10 kilovoltluq "Gənclik" yarımstansiyası paylayıcı şəbəkə üçün müstəsna əhəmiyyətə malikdir. Bu yarımstansiyaların şəbəkələrinin genişləndirilməsi obyektlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Ərazidə yerləşən idarə və müəssisələrin enerji mənbəyi olan "Gənclik" yarımstansiyası 215 və 96 saylı yarımstansiyalar arasında uzlaşaraq, 35 kilovoltluq elektrik əlaqəsinə malikdir ki, bu da qovşağın etibarlılığına və 35 kilovoltluq dairəvi sxemin yaradılmasına xidmət edir. Yarımstansiyanın ətrafında yenidənqurma, abadlıq və yaşıllaşdırma işləri görülübdür.

Prezident İlham Əliyev "Bakıelektrikşəbəkə" ASC-nin Tədris Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur. Dövlət başçısı mərkəzin birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkənin elektrik enerjisi sənayesinin inkişafındakı xidmətlərini əks etdirən fotolardan ibarət guşəyə baxdı. Sonra Prezident İlham Əliyev mərkəzin ikinci mərtəbəsində quraşdırılan müxtəlif texniki avadanlıqla tanış oldu. Bu mərtəbədə 10/04 kilovoltluq iki yarımstansiya, rele mühafizəsi və avtomat elektrik avadanlığı və kabel xətlərinin sınaqları, dispetçer SCADA idarəetmə sistemi bölmələri, alternativ və bərpa olunan enerji mənbələri üzrə sinif otaqları və konfrans zalı yerləşir. Tədris Mərkəzinin dünyanın ən qabaqcıl texnologiyası ilə təchiz edildiyi qeyd olundu. Tədris prosesində elektrik şəbəkəsinin idarə olunması avtomatlaşdırılmış sistem vasitəsilə həyata keçiriləcəkdir. Dövlət başçısı 110 kilovoltluq eleqaz açarının məsafədən idarə olunması prosesini həyata keçirdi.

Sonra "Bakıelektrikşəbəkə" ASC tərəfindən yeni inşa olunan 110 və 35 kilovoltluq yarımstansiyaların slaydları nümayiş etdirildi. Bakı şəhərində ilk dəfə olaraq 110 kilovoltluq dairəvi elektrik sisteminin yaradıldığı bildirildi.

Mərkəzin tədris otaqları müasir əyani vəsaitlər, avadanlıq və kompyuter texnologiyası ilə tam təmin edilib. Burada istehlakçıların dünya standartlarına uyğun elektrik enerjisi ilə təmin etmək üçün tətbiq edilən avadanlıqdan yüksək peşəkarlıqla istifadə etmək üçün şəbəkə işçilərinə müvafiq kurslar təşkil olunacağı bildirildi. Kursların keçirilməsinə qabaqcıl ölkələrin mütəxəssisləri və yerli kadrlar cəlb olunacaqdır. Tədris Mərkəzində şəbəkə işçiləri ilə yanaşı, ali məktəbi bitirən məzunlar da ixtisaslarını artıracaqlar. Kursları bitirənlərə xüsusi sertifikatlar veriləcəkdir.

"Bakıelektrikşəbəkə" ASC-nin Tədris Mərkəzində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev yüksək gərginlikli kabellərin diaqnostika və sınağı zamanı tətbiq edilən səyyar elektrotexnika laboratoriya kompleksi ilə də tanış oldu.

Sonra dövlət başçısı "İçərişəhər" yarımstansiyasının açılışında iştirak etdi. Bu yarımstansiya barədə də Prezidentə məlumat verildi. Qeyd olundu ki, "İçərişəhər" yarımstansiyası "Müşfiq"-"Xırdalan" sistem yarımstansiyaları arasında yaradılmış 110 kilovoltluq iki şüalı, Bakı I dairəvi elektrik sxeminin tərkib hissəsidir. "İçərişəhər" yarımstansiyası "Siemens" şirkətinin əməkdaşları tərəfindən quraşdırılan eleqaz izolə sistem şinli yarımstansiyadır. "İçərişəhər" yarımstansiyası şəhərin mərkəzi hissələrini, yarımstansiyasının ətrafındakı obyektlərin, yaşayış sahələrinin enerji təchizatını təmin etməklə yanaşı, həm də dairəvi sxemin yaradılmasında texniki əhəmiyyət kəsb edən və hazırda uğurla istismar olunan güc yarımstansiyasıdır. Yarımstansiyanın 35 və 6 kilovoltluq dövrələrindən qidalanan şəbəkələr, digər qovşaq yarımstansiyalarının şəbəkələri ilə əlaqələndirilərək etibarlı və dayanıqlı şəbəkə yaradılmışdır.

Yarımstansiyanın bütün elektrik avadanlığı, rele mühafizəsi və avtomat qurğuları SCADA məsafədən idarə etmə sisteminə qoşulmaqla sadə, asan və operativ idarə olunur. Yarımstansiyada elektrik avadanlığı, materialların yanğından və partlayışdan mühafizəsi üçün yanğın əleyhinə siqnalizasiya sistemi də quraşdırılmışdır.

Dövlət başçısı 40 meqavatlıq transformatoru işə saldı. Yarımstansiya ilə tanışlıqdan sonra Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

# Türkiyədə kürd dilində təhsil olacaq



Təhsil naziri Ömər Dinçer: "Şiələr öz din dərslərini almaq istəyirlərsə, nə problem ola bilər?

Türkiyənin təhsil naziri Ömər Dinçer "Əgər Türkiyəni belə demokratik ölkəyə çeviririksə, kürdcə tədrisin olmasında problem olmamaldır, şiələr də öz din dərslərini almaq istəyirlərsə, onlara o dərsləri verməkdə nə problem ola bilər?",- deyə bildirib.

Hazırda Türkiyədə təhsil sistemində tətbiqi nəzərdə tutlan və ciddi mübahisə mövzusu olan "4+4+4" tədris sistemi barədə danışan nazir bunları deyib: "Mən komissiyada yox idim. Normal şəraitdə komissiya sədrimiz və AKP rəhbərliyi müxalifətin mövzu ilə bağlı bütün sözləri söyləmələri üçün böyük fürsət verdilər. Bir mövzunu müzakirə etmək ayrı bir şeydir, bir prosesi əngəlləmək ayrı şey... Bunu edirsinizsə, qarşınızdakıların prosesə dair haqlarını da görmək məcburiyyətindəsiniz. Bu, AKP-nin səbr kasasını dolduran bir vəziyyət oldu. Bir həftədir CHP üzvləri davamlı olaraq erkən gəlib orada oturdular, davamlı danışaraq başqalarına söz haqqı vermədilər. AKP-nin 100 millət vəkili ilə gəlib orada oturmasını qanuni hala gətirən faktor CHP-nin sərgilədiyi davranışdır. Təhsil sistemini başdan sona qədər dəyişdirən bir qanun nəzərdə tutulmur. Yalnız və yalnız təhsilin strukturu yenidən qurulur".

Nazir Dinçer başqa bir suala cavab olaraq şiələrin dini təhsilinə münasibət bildirib: "Mən din dərsi dedikdə İslam, Xristianlıq və Yəhudiliyin, ya da öz inancı nədirsə, onun öyrədilməsini anlayıram. Şiələr öz dərslərini almaq istəyirlərsə, onlara o dərsləri verməyin nə problemi ola bilər?".

# Biz heç kimi özümüzə vəkil etməmişik

**Müsahibim Kürdüstan Demokratik Türkman partiyasının başkanı Dilşad bəydir.**

**Dilşad bəy, Səddam Hüseyn zamanında İraq hököməti türkmanlara hansı haqları vermişdir?**

- Həqiqətən Səddam zamanı 1991-ci ilə qədər türkmanlarin heç bir insani hüquqları yox idi. Hətta türkman dilində danışmağa da icazə vermirdilər, yasaq idi, türkman dilində danışmaq. Heç bircə məktəbimiz də yox idi. Məktəblər, dərnəklər, mədəniyyət mərkəzləri, radio və televiziyadan söhbət açmaq olmazdı. Çünki bir millət kimi İraq Konstitusiyasında türkmanların adı belə çəkilmirdi. Hər zaman zülm altında yaşayırdıq. Səddam quruluşu diktator quruluş idi.Mən Türkiyə rəhbərliyindən soruşuram, 1983-85-ci illərdə 13-yaşından 35-yaşına qədər qız gəlinlərimizi Səddam zorla aparıb Səudiyyə Ərəbistanında 60-yaşında ərəblərə satanda onda sizlər harda yatmışdınız?

Onun "ədalət"i dönəmində heç bir haqqdan, hüquqdan danışmaq olmazdı. 1991-ci ildə Məsud Bərzaninin rəhbərliyi altında Kürdüstandakı xalqlar, əsasən kürdlər, türkmanlar, assurilər, məsihilər, kıldanilər, bir qisim ərəblər birləşərək qalxdılar, zülmkar Səddam Hüseynin ordusunu Kürdüstandan qovub çıxartdılar və Kürdüstan hökumətini elan etdilər. Bu hökümət demokratik biçimdə bütün xalqlara öz haqqını tanıtdı və bütün çətinliklərə baxmayaraq, azsaylı xalqların mədəni haqlarını verdi və onlara böyük şərait yaratdı. O dönəmdən həqiqətən Kürdüstan azad oldu. Burada yaşayan xalqlar birlik əldə etdilər və birlik üzərində çalışdıq, seçimlərə qatıldıq, parlament seçiminə . O vaxt bizim andımız, qərarımız bu idi ki, Kürdüstan hököməti yaradaq və bu höküməti biz yaratdıq. Bu hökumət azsaylı xalqların, o cümldən türkmanların mədəni haqlarını geniş aləmə tanıtdı. Kürdüstan hökümətin qərarı ilə 120-i məktəb, 20-i dən artıq dərnəklər, mədəniyyət mərkəzləri, radio, televiziya, bir çox qəzet dərgiləri işıq üzü gördü.

**- Dilşad bəy partiyanızın neçə üzvü var?**

- Partiyamızın üzvləri çoxdur. Büro üzvlərindən başqa, 25 minə qədər partiyamızın üzvü var.

**- Kürdüstan hökuməti ayda nə qədər yardım sizə edir?**

- Bizim burada 6 türkmən partiyası, bir neçə dərnəyimiz var. Eləcə də 4 müxalif partiyası və 2 dərnəyi var. - Kürdüstan hökuməti kifayət qədər bizə yardımlar edirlər. Eyni zamanda kompaniyalar da bizə yardımlar edirlər.

**- Bu bürolarınız kim tərəfindən yaradılıb. Hökumət sizə nə yardım edib?**

- Bu büroların yeri hökümət tərəfindən təyin edilmişdir və özümüzün gücü ilə və Kürdüstan hökümətinin köməkliyi ilə tikmişik. Ondan əlavə bütün bölgələrdə bürolarımız var. Dərnəklərin icazəsini Kürdüstanın Xarici İşlər Nazirliyindən almışıq. Partiyaların icazəsi isə Ədliyyə Nazirliyindən alınıb. Amma müxalif partiyalar qeyri-qanuni fəaliyyət göstərirlər. Buna baxmayaraq Kürdüstan hököməti onlara rəğbətlə yanaşır. Bu gün Kürdüstanda çox sabitlikdir, bu sabitliyə görə biz sərbəst çalışa bilirik.

**- İndi müsəlman dövlətləri çalışırlar ki, Avropa Birliyinə daxil olsunlar. Hansı ki, Avropa dövlətləri bütün xammalı və işçi qüvvəsini müsəlman dövlətlərindən aparır. Olmazmı ki, müsəlman dövlətləri birləşib İslam birliyi yaratsınlar və bu İslam birliyini elə inkişaf etdirsinlər ki, Avropa dövlətləri islam birliyinə qəbul olmağa can atsınlar?**

- İslam dövlətlərində belə birlik olsaydı, çox gözəl olardı. Lakin islam ölkələrində demokratiya yoxdur, sərbəstlik yoxdur. Bəli, Avropa ölkələrində demokratiya var. Hər bir insan hüquqlarını bilir və istədiyi kimi çalışır. Lakin bizim islam dövlətlərinin yeraltı zənginliklərinin olmasına baxmayaraq çalışırlar ki, bir-birlərini parçalasınlar, biri o birisinin insani haqlarını işğal etsin. Lakin islam dövlətləri demokratik şəkildə birləşərək güclü qüvvəyə çevrilsələr Avropa dövlətləri onlarla hesablaşar. Çünki İslam dövlətlərinin yeraltı zənginlikləri tükənməzdi. Ona görə də həmişə Avropa dövlətləri gözünü İslam dövlətlərinin yeraltı sərvətlərinə dikərək, bu qardaş xalqları bir-birinin üstünə saldıraraq öz çirkin niyyətlərini həyata keçirirlər.Bayaq qardaşımız da qeyd etdi ki, Səddam Hüseyn bizim başımıza zülm açdığı zaman İran və Suriya dövlətləri qapılarını bizim üzümüzə açan yeganə dövlətlər oldular, şaxtalı qış günündə bizə həyan oldular. Çox təəssüflər olsun ki, ilk əvvəl Türkiyə də qismən bizə öz qapılarını açsa da, türkman xalqını sonda öz mənafeyinə qurban etməyə çalışdı və qapılarını üzümüzə bağladı. İndi biz Kürdüstan hökumətinin demokratiyası altında bütün mədəni haqlara sahib olmuşuq. Lakin Türkiyə dövləti bir qism türkmanı öz tərəfinə çəkərək Kürdüstandakı demokratiyanı və bizim haqlarımızı pozmaq istəyir. Nədənsə türk dövləti istəmir ki, türkman xalqı öz azadlığını sürdürsün. Çünki bundan 5 il əvvəl, 2002-ci ildə Türkiyə dövlətinin rəhbərliyi ilə müxalif türkmanlar Səddam Hüseyn rejimini Kürdüstana gətirmək və Kürdüstanda olan demokratiyanı dağıtmaq istədilər. Türkmanların illər boyu əldə etdiyi haqlarını əllərindən almağa çalışdılar. Çünki Türkiyədə yaşayan kürd qardaşlarımız 25-30 milyondur. Amma heç bir demokratik haqları yoxdur. Türkiyə dövləti Kürdüstan hökümətinin azsaylı xalqlara verdiyi demokratik haqlardan narazıdır. Çünki burda olan demokratiya oraya da təsir edə bilər və Türkiyə Kürdüstanındakı kürd xalqı da öz haqlarını tələb edirlər. Ona görə də Türkiyə Kürdüstan hökumətini və demokratiyasını tanımaq istəmir.İstəmir qoy istəməsin, ancaq qanla əldə etdiyimiz azadlığı heç vaxt əldən verməyəcəyik.Biz türkmanlar Türkiyəni özümüzə vəkil etməmişik.



*Soldan: Tahir Süleyman, Vəli bəy və Kürdüstan Demokratik Türkman Partiyasının başkanı Dilşad bəy*

**- Azərbaycan hökumətinə, Azərbaycan xalqına nə çatdırmaq istərdiniz?**

- Bizim dilimizlə azəri dili eynidir. Biz Azərbaycan hökümətindən, Azərbaycan dövlətindən ərklə tələb edirik, xahiş edirik.Onlarla dövlətin nümayəndəliyi Kürdüstanda açılıb. Qoy hörmətli prezidentimiz İlham Əliyev cənabları Ərbildə Azərbaycan nümayəndəliyini açsın, biz azərilə-türkmanlara sahib çıxsın.

Kürdüstan hökuməti ilə siyasi, ticarət və mədəni əlaqələr yaratsınlar. Çünki Azərbaycanda neçə minilliklərdir ki, kürdlər və azərilər bir yerdə mehribancasına yaşadıqları kimi, burada da türkmanlarla kürdlər birgə yaşayırlar. Biz çox məmnunuq. Siz birinci şəxs olaraq Azərbaycan vətənimizdən bura təşrif buyurmusunuz, bizimlə görüşürsünüz. Biz təmənna edirik ki, bizim xahişimizi Azərbaycana çatdırasınız.

***Müsahibəni apardı: Tahir SÜLEYMAN***

## Sətri xəbərlər

* Məsud Barzani: Biz Kürdüstanı birləşdirməyə çalışmalıyıq.
* Neçirvan Barzaninin başçılıq etdiyi yeni hökumətdə yeni nazirlik – "Diaspora məsələləri üzrə" nazirlik yaradılacaq.
* Suriya müxalifəti: Kürdlərin tələblərini yerinə yetrimək fikrində deyilik.
* Türkiyədə Novruz bayramını qeyd etmək qadağan edilib.
* Rəsmi Bağdad: İranın Suriyaya silah verməsinə qarşıyıq.
* Cənubi Kürdüstanda 50-yə yaxın neft şerkəti fəaliyyət göstərir.
* Faşist Səddam Hüseynin yürütdüyü siyasətin qurbanları tək kürdlər yox, həm də şiələr, türkmanlar, aysorlar, yahudilər və s. olmuşlar. Son hesablamalara görə, İraqda bu zaman ərzində 100 minə yaxın yahudi məhv edilmişdir, 300 minə yaxını isə İsrailə deportasiya edilmişdir.
* Avropa Parlamentinin xüsusi komissiyası: Türkiyənin kimyəvi silahdan istifadə etməsindən çox narahatıq.
* Moskva şəhərində Hələpçə (İraq) və Qamışlo (Suriya) şəhərində törədilə soyqırma aid konfrans keçirilmişdir.
* Əfqanıstanda əməliyyat keçirən Türkiyə helikopteri qəzaya uğrayıb. Helikopter yaşayış binasının üstünə düşüb. Nəticədə 12 hərbiçi və 2 azyaşlı uşaq həlak olmuşdur.
* Bu ilki İraq Kürdüstanındakı Novruz bayramında Ərəbistandan 10 min ərəb iştirak edecekdir.
* BMT-nin nümayəndəsi Kofi Annan: Suriyadakı ixtişaşlar Türkiyəyədə keçə bilər. Bunun qarşısı alınmalıdır.
* "Azad Kürdüstan" qəzetinin baş redaktoru İşxan Miroyev: Kürdüstan artıq müstəqilliyə hazırdır.
* Belçika hökuməti rəsmi olaraq Kürdüstan bayrağını tanıyıb və rəsmi tədbirlərdə istifadə olunmasına icazə verib.
* İraq Parlamentinin deputatı Mahmud Osman: ABŞ kürdlərin dostu olmayıb və olmayacaq.
* Osman Baydemir: uşaqların yeri mitinqlər deyil, məktəblərdi.
* İraq Parlamentində Hələbcə soyqırımına dair iclas keçirilib.
* Kürdüstanda İnformasiya Texnologiyalarını inkişaf etdirmək üçün böyük sərmayələr qoyulub. Hal-hazırda bir-sıra Avropa kompaniyaları Kürdüstanda fəaliyyət göstərirlər.
* Əhməd Türk: bütün kürd partiyaları Novruzu birgə keçirdəcəklər.
* ABŞ xüsusi xidmət orqanının başçısı gizli olaraq Türkiyəyə səfər edib.
* İran və İraq hökuməti ortaq bank yaradacaqlar.
* Serbiya Respublikası Kürdüstanda fəxri konsulluq açacaq.
* Kürdüstan muxtariyyətinin rəhbərliyi, tarixi abidələri bərpa etmək üçün yeni layihə hazırlayıblar.



## "Kürdlər, ərəblər, türklər və farslar bir-birinə düşmən deyil"

İslamazeri.az-ın Türkiyə KİV-inə istinadən verdiyi xəbərə görə, İraqın şimalındakı regional hökumətin rəhbəri Məsud Bərzani kürd, ərəb, türk və farsların bir-birləriylə düşmən olduğu fikrinin səhv olduğunu söyləyib. Barzani "Biz bunun əksini isbat edəcəyik" deyib. Ərbildə başlayan Kürd Gəncləri Konfransında çıxış edən Barzani son bir neçə ildə dünyada, xüsusilə Yaxın Şərqdə yaşanan dəyişikliklərə toxunub: "Bu konfransda kürdlərin sülh mesajını bütün dünyaya çatdıracağıq".Barzani İraqın vitse-prezidenti Tarıq Haşimini Bağdada təhvil verməyəcəklərini, Haşiminin mühakimə olunduğu prosesin hüquqi deyil, siyasi bir iş olduğunu bildirib. O, Haşiminin gizli yollarla başqa ölkələrə göndəriləcəyinə dair xəbərlərə də sərt reaksiya verib: "Kürdlər qaçaqçı deyil".

***islamazeri.az***

## Bərzani: "Kürdlərin sülh mesajını bütün dünyaya çatdıracağıq"

İraqın şimalındakı regional hökumətin rəhbəri Məsud Bərzani kürd, ərəb, türk və farsların bir-birləriylə düşmən olduğu fikrinin səhv olduğunu söyləyib". Bərzani: "Biz bunun əksini isbat edəcəyik" deyib.

Ərbildə başlayan Kürd Gəncləri Konfransında çıxış edən Bərzani son bir neçə ildə dünyada, xüsusilə Yaxın Şərqdə yaşanan dəyişikliklərə toxunub: "Bu konfransda kürdlərin sülh mesajını bütün dünyaya çatdıracağıq".

Bərzani İraqın vitse-prezidenti Tarıq Haşimini Bağdada təhvil verməyəcəklərini, Haşiminin mühakimə olunduğu prosesin hüquqi deyil, siyasi bir iş olduğunu bildirib. O, Haşiminin gizli yollarla başqa ölkələrə göndəriləcəyinə dair xəbərlərə də sərt reaksiya verib: "Kürdlər qaçaqçı deyil".

***Bizimxeber.az***

## Kürdlər İraq hökumətinin tələbini rədd etdilər



İraqın Şimalındakı kürd administrasiyasının rəhbəri Məsud Bərzani bu gün verdiyi açıqlamada sabiq vitse-prezident Tariq əl-Haşiminin İraq hökumətinə təhvil verilməyəcəyini bildirib. Trend-in məlumatına görə, bu barədə Əl-Cəzirə telekanalı məlumat verib. "Tariq əl-Haşimi İraq mərkəzi hökumətinə təhvil verilməyəcək. Bundan əlavə, Haşiminin İraqın hüdudları kənarında məhkəməyə çıxarılması da yol verilməzdir", - Bərzanı bildirib. Onun sözlərinə görə, kürd administrasiyasından sığınacaq almış şəxsin qarşı tərəfə təhvil verilməsi qeyri-etikdir. Keçən ilin dekabr ayında İraqın sabiq vitse-prezidenti Tariq əl-Haşiminin həbsinə order verilib. Haşimi "terror fəaliyyətində" əli olmaqda şübhəli bilinir.

# Qoy heç kim türkman xalqını öz mənafeyinə qurban etməsin

**-Şirzad bəy, özünüzü təqdim edin.**

-Mən Şirzad Əmrəl Üzeyirağalı Türkman Milliyyətçi Qurtuluş Partiyasının başkanıyam.

Bizim yaşadığımız Kürdüstan bölgəsi Həvin dağlarının uzunluğu ilə güneyi Ərəbistandır və quzeyi Kürdüstandır. Surcardan Bədrocağa qədər güneydən bizim şəhərlərimiz, kəndlərimiz bu sərhəddə bütün kürd,türkman kəndləri və şəhərləri xarabaya çevrilmişdi. Kürdüstan və ətraf bölgələr Səddam Hüseyn tərəfindən İraq dövlətinin quruluşundan bəri ərəblərin zülmü altında idi. Xüsusilə Səddam Hüseyn hakimiyyətə gəldiyi andan ilk zülmünü türkman millətinə verdi. Türkman millətinin nə adı var idi, nə də bir hüququ. Türkmanlar şəhərlərdən mülk ala bilməzdi, sata bilərdi, uşaqlarının adını belə türkmanca qoya bilməzdi, qadağan idi. Əks təqdirdə onu siyahıya alınmada qeyd etməzdilər, şəxsiyyət vəsiqəsi verməzdilər.Görəsən onda Türkiyə dövləti harada yatmışdı?

Səddam Hüseyn, doğrudur, kürd xalqına qarşı kimyəvi silah işlətdi , kütləvi qırğınlar elədi, repressiyalar etdi. Yüz səksən min dinc əhalini diri-diri gömdü.Səkkiz min insanı səkkiz yaşından səksən yaşına qədər Barzani nəslindən olan kişiləri yox eti. İstədi kürd xalqını yox etsin. Amma eyni zamanda da türkmanlara heç bir haqq tanıtmamışdır. Türkmanlar kütləvi şəkildə doğma vətənlərindən qaçırdılar amma Türkiyəyə yox.Çünki Türkiyə Səddamdan neft alırdı.O zamanlar türkmanlar Türkiyənin yadına düşmürdülər. Səddam Hüseyn heç bir insana heç bir haqq verməmişdir. O, tək zülmündə "adil" idi. Zülmünü adilanə bir şəkildə bölüm yapmışdır. Zülmünü "ədalət" lə kürd xalqına, türkman xalqına paylamışdır. Amma Səddam Hüseynin bu zülmünə xalqımız, başda qardaşlarımız kürd xalqı olmaqla haqlarımızı müdafiə etmək üçün mübarizəyə qalxdıq. O mübarizə 1991-ci ilin mart ayında Məsud Bərzaninin və Cəlab Təlabaninin rəhbərliyi altında xalq mübarizəyə qalxdı və Səddam ordusunu Kürdüstan bölgəsindən qovub çıxartdılar. Biz Kürdüstan bölgəsində yaşayan xalqlar Kürdüstan Parlamentini seçdik. Kürdüstanda yaşayan millətlər seçki keçirdilər və parlamentin vəkilləri seçildi. Parlament seçkisindən sonra bir hökümət quruldu. Və xəyallarımızda arzuladığımız Kürdüstan dövləti elan olundu.



*"Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman və Türkman Milliyyətçi Qurtuluş Partiyasının başkanı Şirzad Əmrəl Üzeyirağalı*

Bu dövlətdə bütün xalqların nümayəndələri təmsil olunurlar. Ən çox böyük demokratik özgürlük Kürdüstanda yaşayan azsaylı xalqlara verildi. Radio və televiziya kanalları, qəzet və jurnallar, dərnəklər, maqazinlər açıldı, bütün millətlərin öz dilində özgürcə yayımları yayımlanır, nəşr olunur və xalq oxuyur. Kürdüstan hököməti tərəfindən heç bir basqı heç kəsə olmayıb və yoxdur.

**- Kürd rəhbərliyi sizə necə münasibət bəsləyir?**

- Kürd xalqı tarixi bir zülm altındadırlar. Bu zülmləri görən kürd milləti türkmanlara, məsihlərə, assurilərə, kuldanilərə, ərəblərə qardaşcasına baxır. Onlar istəmirlər ki, bir vaxtlar özləri yaşadıqları zülmləri başqa millətlər də yaşasınlar. Ona görə də Kürdüstan rəhbərliyi tərəfindən böyük demokratik seçim uyğulandı, tətbiq olundu. Bu demokratiyanın içərisində türkman milləti də yararlandı. Xalqımızın arzuladığı milli partiyalar elan olundu. Qanuni parlamentdən iş görmək icazəsi aldı. Kürdüstanda bütün azsaylı xalqlar örnək demokratiya əldə etdilər. Hökümət dairələrində təmsil olundular.

Arzumuz budur ki, Yaxın Şərqdə və dünyada Küdüstanda olan demokratiya həyata keçirilsin, heç bir xalqın haqqı tapdanmasın. Necə ki, kürd xalqı bu böyük özgürlüyü bizə rəva gördülər ki, öz dilimizdə məktəbimiz , radio və televiziyamız, qəzetimiz, mədəniyyət mərkəzimiz olsun ki, adət-ənənələrimizi unutmayaq. Bu həqiqəti biz Kürdüstandan bütün dünyaya səsləndiririk, zülm dönəmi getdi!

Qoy Türkiyə bizim daxili işimizə qarışmasın, orda yaşayan iyirmi beş milyonluq kürd xalqının haqlarını versin. Müharibə zamanı bitdi.Cənabınız Azərbaycanın yaşamından nümunə verdiniz ki, orada necə yaşayırsınız. İnanın millət birliyi qarşısında heç bir qüvvə dura bilməz. Bu gün kürd xalqı üzərinə nə qədər basqı çox olursa , qarşı durma da çox olur. Çünki millətin, xalqın qarşısında heç bir şey dura bilməz. Əgər biz istəsək ki, insanlarımız barış içərisində yaşasınlar və bir insan yaşamını tətbiq etsinlər, onda millətlər bir-birinə qardaş gözü ilə baxmalıdırlar. Qoy bir-birlərinə kömək etsinlər. İraq Kürdüstanındakı seçimi ölkələrdə tətbiq etsinlər. Çünki bu demokratiya bizə şan-şərəf verir,biz bu demokratiyanı müdafiə edir və özgürcə yaşayırıq. Bir əldən min könüldən dövlətimizə xidmət edirik.

Türkiyə dövləti öz içində yaşayan xalqların demokratik haqqlarını versin, kürd xalqını millət kimi tanısın, bizə verilən haqqları onlara da versin, ondan sonra başqalarının işinə qarışmağa yox, danışmağa haqq qazansın.

**- Dünya türkdilli dövlətlərinə nə demək istərdiniz?**

- Bizim soyumuzdan, bizim qanımızdan olanlar, türk dünyasında yaşayan insanlarımız, Azərbaycandır, Türkiyədir, Qazaxstandır, Özbəkistandır və.s. Bizlər bu dildən, bu nəsildən olanlar Səddam Hüseyn dönəmindən başımıza gətirilən zülm zamanı heç kəs səsini çıxartmadı. Bizim ümidimiz bir Türkiyə dövləti idi ki, bizim adımızı dilə gətirsin və bizi müdafiə etsin. Amma çox təəssüflər olsun ki, bir neçə çirkli əlləri istiğbarat fikri ilə göndərdilər içimizə, bizim türkman millətinin istiqbalını öz mənfəətinə qurban verərək yox etsinlər. Düşmən tapmağa, kürd xalqı ilə türkman xalqını düşmən etməyə və şovinist ərəblərlə işbirliyi yapıb, kürd və türkman xalqının əldə etdiyi azadlığı məhv etsinlər.

Bu da bir məzlumiyyəti sürdürməkdir. Kürd xalqı da bizim qardaş xalqımızdır. Kürd xalqının sayəsində biz də başı uca, kəramətlə, şan-şərəflə yaşayırıq. Bu dövlətlərə, türk dünyasına səsləndiyimiz məsələ odur, türkman xalqını qurban etməsinlər öz mənafeylərinə. Türkman azad bir millətdir, burada qardaş xalqlarla birgə yaşayırıq. Bizi özlərinə dost etsinlər. Çalışsınlar ki, buradakı xalqlarla bizim qardaşlığımızı şanlışərəfli etsinlər. Kərkük və cənub bölgələrdəki xalqların durumu çox ağırdır. Biz Kürdüstan rəhbərliyindən xahiş edirik ki,bu bölgələri referendum yolu ilə Kürdüstan bölgəsinə aid etsinlər.Heç kimin haqqı yoxdur, biz türkmanların adından danışsın. Biz xahiş edirik ki, Azərbaycan hököməti, Azərbaycan dövləti bizim hüquqlarımızı müdafiə etsin.Kürdüstan hököməti ilə ictimai-siyasi, iqtisadi və mədəni əlaqələr yaradılsın. Məktəblərimizdə azərbaycan tədris sistemini təşkil edilsin. Çünki biz azərbaycanlıyıq!

# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri



**Cəmil HƏSƏNLİ**
*Tarix elmləri doktoru, professor*

***"Media forum" saytı tarixçi alim Cəmil Həsənlinin "Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)" araşdırmasını oxuculara təqdim edir.***

**Əvvəli ötən saylarımızda**

Xankəndi tarixən müsəlmanların yaşadığı və muxtar vilayət yaradılarkən türk yaşayış məntəqəsi kimi qeydə alınan kiçik bir yaşayış məntəqəsi idi. Ona qəsəbə statusunun verilməsi Xankəndinin "paytaxt" olmaq zərurətindən irəli gəlirdi. 1920-ci ilin iyulundan başlayaraq Xankəndinin mərkəz olması istiqamətində fikirlər səslənməyə başlanmış, 1922-ci ilin payızından etibarən isə bu istiqamətdə əməli addımlar atılmağa başlamışdı. Hələ 1920-ci ilin aprel ayının sonunda yaradılmış əsasən daşnaklardan ibarət olan Dağlıq Qarabağ erməni komitəsi az sonra çox asanlıqla Azərbaycan Kommunist Partiyasının qəza komitəsinə çevrilib və iyul ayının 11-də həmin komitənin başçısı kimi S.Ambarsumyanın və digər bir həmkarının Azərbaycan K(b)P MK-ya göndərdiyi məruzədə bildirirdi ki, biz müsəlmanlar arasında partiya işinin qoyuluşundan tamamilə məlumatsızıq və müsəlman yoldaşlardan tamamilə ayrılıqda işləyirik: "Partiya nizamsızlığı Qarabağda bütün təşkilatı işi məhv olmaq təhlükəsi altına alır. Mərkəz lazımdır və bu mərkəz Qarabağın bütün rayonlarının coğrafi və iqtisadi baxımdan əlaqələndirən Xankəndi olmalıdır".

Göründüyü kimi, müxtəlif erməni təşkilatları hələ sovetləşmənin ilk aylarından başlayaraq Xankəndini mərkəz kimi gözaltı etmişdilər.

1922-ci ilin dekabrında Qarabağ komitəsinin tərkibi Azərbaycan MİK-in kommunist fraksiyası ilə birlikdə AK(b)P MK-da təsdiq edildikdə komitəyə tapşırıldı ki, Xankəndidə məktəb və xəstəxana açılması işini həyata keçirsin. Əsasən azərbaycanlılardan ibarət olan Şuşa şəhərinin əhalisinin bu məsələyə münasibəti necə idi?

1923-cü ilin avqust ayının 9-da Şuşa şəhər əhalisinin adından onların səlahiyyətli nümayəndələri Rüstəm Əliyev, İbrahim Musayev, Bəşir Sarabi və Hacı Şəmşiyevin Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə göndərdikləri ərizə bu baxımdan müstəsna dərəcədə maraqlıdır. Ərizənin əvvəlində son yüz il ərzində Qarabağda cərəyan edən hadisələrə toxunaraq deyilirdi: "Bir əsrdən artıq davam edən uzun illər ərzində Qarabağ Rusiya imperiyasının digər hissələri kimi rus militarizminin zülmü altında inləyib".

Sonra onlar Şuşa şəhərinin və ətrafdakı müsəlman kəndlərinin Muxtar Qarabağ Dağlıq Vilayətinin tərkibinə daxil edilməsinə öz etirazlarını bildirir və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsindən xahiş edirdilər: "Şuşa şəhəri və onun ətrafında olan müsəlman kəndləri iqtisadi baxımdan yeni yaradılan Kürdüstan qəzasının əhalisi ilə bağlıdır. Ona görə əhali bizi vəkil edibdir ki, şəhərin və onun ətraf kəndlərinin Kürdüstan qəzasına birləşdirilməsi məsələsini qaldıraq. Yuxarıda deyilənlərə əsasən biz əminik ki, sovet hökuməti əhalinin maraqlarından yan keçməz, əksinə, həmişə onun ədalətli istəklərini xoş məramla qarşılayar. Ona görə də xahiş edirik ki, Şuşa şəhəri və onun ətraf kəndlərinin əhalisinin Kürdüstan qəzasına birləşdirilməsi ilə bağlı müraciətini təmin edəsiniz".

Ərizənin sonunda Şuşanın və ətrafdakı müsəlman kəndlərinin səlahiyyətli nümayəndələri yazırdılar: "Əgər hər hansı mülahizələrlə bizim xahişimizi yerinə yetirmək mümkün deyilsə, onda xahiş edirik Şuşa şəhərini Dağlıq Qarabağın mərkəzi kimi saxlayasınız, onu (mərkəzi - C.H.) Xankəndinə keçirməyəsiniz".

Şuşa əhalisi nümayəndələrinin Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə müraciətindən xəbər tutan kimi yeni yaradılmış muxtar vilayətin erməni rəhbərliyi Sergey Kirova teleqram vurub bunu ehtikarlıq adlandırdılar. Şuşa Qəza İcraiyyə Komitəsinin katibi S.Manusyan yazırdı ki, belə müraciətlər mərkəzin köçürülməsinin Şuşada ticarətin bağlanmasına gətirib çıxaracağını hiss edən tacirlərin gözlədikləri gəlirdən məhrum olacaqları təhlükəsinin açıq ifadəsidir.

Lakin vilayətin erməni rəhbərliyinin müqavimətinə baxmayaraq Şuşa əhalisi muxtar vilayətin tərkibində qalmamaq üçün öz səylərini davam etdirdi. 1924-cü ilin yanvar ayının 4-də Şuşa əhalisinin adından səlahiyyətli nümayəndə kimi Miriş Mirbağırov və Ələsgər Quliyev surəti Sergey Kirov, Mir Cəfər Bağırov və Serqo Orconikidzeyə olmaqla Zaqafqaziya sovetlər qurultayına göndərdikləri teleqramda Şuşanın çoxminli azərbaycanlı əhalisinin adından bu şəhərin Kürdüstan qəzasına birləşdirilməsini tələb edirdilər. Yalnız Şuşa şəhərinin azərbaycanlı əhalisinin ciddi cəhdlərindən sonra AKP MK 1924-cü ilin aprel ayının 17-də keçirilən iclasında Qarabağ Vilayət Komitəsinə tapşırdı ki, ətrafındakı türk kəndləri ilə birlikdə Şuşa şəhərini ayrıca inzibati rayona ayırsın.

***

Muxtar Qarabağ Dağlıq Vilayətinin yaranması haqqında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinin sonuncu, 5-ci bəndində göstərilirdi ki, vilayətin əsasnaməsini hazırlamaq və Muxtar Qarabağ Dağlıq Vilayətinə faktiki olaraq inzibati vahid vermək, habelə muxtar vilayətin sərhədlərini müəyyən etmək üçün Dağlıq Qarabağın, düzən Qarabağın, Kürdüstan və Azərbaycan SSR-in mərkəzi orqanlarının nümayəndələrindən ibarət qarışıq komissiya yaradılsın. Komissiyaya tapşırılırdı ki, avqust ayının 15-nə qədər öz işini başa çatdırsın.

Ona görə də Muxtar Qarabağ Dağlıq Vilayətinə hüquqi məzmun verməkdən ötrü 1923-cü ilin iyul ayının 14-də AK(b)P MK-nın Rəyasət Heyəti onun əsasnaməsinin hazırlanması məsələsini müzakirəyə çıxardı. Ə.Qarayevin iştirak edə bilməyəcəyini nəzərə alaraq A.Karakozov, Ç.İldırım, M.Xanbudaqov, M.Çalyan və S.Manusyandan ibarət komissiyaya rəhbərlik etmək Dadaş Bünyadzadəyə tapşırıldı. Komissiya ən qısa zamanda əsasnaməni hazırlayıb Rəyasət Heyətinin təsdiqinə verməli idi.

İyulun 23-də AKP MK Rəyasət Heyəti bu məsələni yenidən müzakirəyə çıxarıb əsasnamə layihəsində bəzi kiçik dəyişikliklər etdi. Eyni zamanda iclasda Dağlıq Qarabağ işləri üzrə komitə ləğv edildi və onun bütün əmlakı muxtar vilayətin inqilab komitəsinə verildi. Bununla yanaşı Azərbaycan XKS iyul ayının sonunda Muxtar Qarabağ Dağlıq Vilayətinə 8 min çervon (1922-1947-ci illərdə SSRİ-də on manatlıq kağız pul - C.H.), 15 min qızıl manat dəyərində 5 min pud kerosin, müxtəlif tikinti materialları və 10 min arşın bez buraxdı.

1923-cü ilin iyul ayının son günlərində Muxtar Qarabağ Dağlıq Vilayətinin əsasnaməsini hazırlayan komissiyanın geniş iclası keçirildi. İclasda 1923-cü ildə quberniya icraiyyə komitələri üçün qəbul edilmiş əsasnamə Muxtar Qarabağ Dağlıq Vilayəti üçün də əsas kimi götürüldü. İnzibati baxımdan muxtar vilayət Qarabağda yaşayan erməni əhalisi bəhanəsi ilə yaradılsa da, komissiyanın iclasında Qarabağın çox sayda türk kəndlərinin də onun tərkibinə daxil olması haqqında qərar qəbul edildi.

Hətta komissiya üç nəfər əleyhinə olmaqla böyük səs çoxluğu ilə Şuşa şəhəri və Xonaşen kəndinin düzən Qarabağa aid olması haqqında qərar qəbul etsə də, A.Karakozov təkid etdi ki, Şuşa şəhəri və Xonaşen ərazisi Dağlıq Qarabağın tərkibində qalmalıdır. Bir Karakozovun mövqeyi komissiyanın sədri də daxil olmaqla iclasda iştirak edən altı nəfər azərbaycanlı rəhbər işçinin mövqeyindən güclü çıxdı. Eyni zamanda iclasda düzən Qarabağın və Kürdüstanın idarəçilik forması və inzibati bölgüsü haqqında qərarlar qəbul edildi.

Bir il sonra, 1924-cü ilin iyun ayının 5-də Ağdam qəzası ilə Muxtar Qarabağ Dağlıq Vilayəti arasında sərhəd məsələlərini aydınlaşdıran komissiyanın iclasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 6 avqust əmrinə əsasən Xonaşen torpaqlarının, o cümlədən Kuropatkino kəndinin ərazisinin muxtar vilayətin sərəncamında qalması haqqında qərar qəbul edildi. Qərarın ikinci bəndinə əsasən, qeyd edilən ərazilərdə artıq 1924-cü ildə əkin işləri aparmış avşarlar məhsul toplamaq hüququndan məhrum edildilər.

***

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin muxtariyyət haqqında dekretindən sonra Dağlıq Qarabağda yaranmış vəziyyəti öyrənmək və izahat işləri aparmaq üçün AK(b)P MK Rəyasət Heyətinin 20 avqust və MK katibliyinin 5 sentyabr qərarına uyğun olaraq Eyyub Xanbudaqov, İsay Dovlatov və Mir Cəfər Bağırovdan ibarət heyət Qarabağa ezam edildi. Onlara tapşırıldı ki, müsəlmanların yaşadığı Kolanı kəndi ilə ermənilərin yaşadığı Sarov kəndi arasında yaranmış münaqişəni də ətraflı şəkildə öyrənsinlər.

Bu ezamiyyətin yekunları oktyabr ayının 8-də Rəyasət Heyətində geniş müzakirə olundu və müvafiq qərar qəbul edildi. Qərarda Dağlıq Qarabağ üçün haqqı ödənilmədən meşə materiallarının buraxılması Torpaq Komissarlığına tapşırılırdı. XKS-ə tapşırıldı ki, Dağlıq Qarabağ üçün borc toxum verilməsinin artırılması məsələsini qaldırsın, Stepankənddə (Xankəndində - C.H.) elektrik stansiyası qurulması üçün vəsait buraxılması işini sürətləndirsin və Dağlıq Qarabağın aclıq çəkən əhalisinə təcili qaydada yardım göstərsin. Karakozova və Torpaq Komissarlığına tapşırıldı ki, Dağlıq Qarabağda torpaq məsələləri ilə bağlı məsələləri aydınlaşdırsınlar. Səhiyyə Komissarlığına tapşırıldı ki, Stepankənddə xəstəxana açsın. Torpaq Komissarlığına tapşırıldı ki, Stepankənddə aqroməntəqə təşkil etsin (Ağdam və TərTər aqroməntəqələrinin hesabına olmamaq şərti ilə).

Eyni zamanda iclasın qərarı ilə Qarabağ Vilayət Komitəsinə və icraiyyə komitəsinə təklif edilirdi ki, əsasən müsəlmanlar yaşayan kəndlərin Kürdüstan qəzasına verilməsi ilə bağlı Qaladərəsi rayonunda sərhədləri yenidən nəzərdən keçirsin.

Sonuncu məsələ ezamiyyətdən qayıtdıqdan sonra Mir Cəfər Bağırovun AK(b)P MK-ya yazdığı geniş xidməti məlumatda irəli sürülmüşdü. Bağırov bildirirdi ki, 10 min nəfər müsəlmanın yaşadığı Şuşa şəhəri istisnasız olaraq Kürdüstan qəzasına birləşmək istəyir. O təklif edirdi ki, Şuşa şəhəri Kürdüstan qəzasına birləşdirilə və bundan sonra qəza mərkəzi bilavasitə Şuşaya köçürülə bilər.




**Ardı var**



**Əsəd Ərbil**

## Ənfal

**Arayış:**

*1-ci Səddam rejimi tərəfindən 7000 Kürd ailəsi Ərbil, Duhok şəhərlərindən alınaraq diri-diri onları toplu məzarlıklara basdıraraq ictimaiyyətdən gizlətdilər.*

*2 -ci Hələpçə qəsəbəsində və ətraf kəndlərində isə qadağan olunmuş kimyəvi bombaları mülki insanlara qarşı istifadə edərək bu rejim, minlərcə insanı şəhid etdilər.*

*Bu şeirimi insan haqqı olaraq o, Şəhidlərə yazmışam:*

İnsanlarda
Qaranı ağı fərq etməm
Hamımızı bir nəsnə toplar
Oda kutsal
İnsan sözcüyü.

Ey Ənfal ailələri ...
Ey Hələpçənin
Şəhid ana və ataları,
qardaş bacıları :
Dəyəriniz başım üsdə,
Qəlbimdə də
Adınız və yeriniz vardir.
Bizdə Türkmənlər
Sizin gimi
Acılar çəkdik,
Qurbanlar verdik,
Üç ağaca da asılmışıq,
Sürgünlərədə
Götürüldük zorla
Yoxsa da zorla.

Bunlara rağmən
babalarımız şəraf meydanını
heç buraxmadılar
Topraklarımızı savunarak
Şəhid düşdülər
Ama topraqlarsa
Özgür qaldı.

Bizimdə sizin kimi
Dul analarımız
Zülmə dirəndilər
Mərdlik südünü
Bizlərə əmizdirdilər.

Mən bir Türkmənin
Şəhid qardaşıyam
Ki vətən uğrunda
qanını tökdü,
Sizin şəhidlərinizdə qardaş idilər
Güney Afrika da belə
Yapon, Kore və Bosna Hersiktə də
Şəhid düşən qardaşımdır,
Bunlar vətən, Millət və Dil
Yçün şəhid olmuşlardır.
Öz yarama rağmən
Sizlərə də acıyıram
Ənfal olduğunuza
Hələpçədə yasak atom
Və Kimyəvi
Bombalarla vurulduğunuza
Sizində yaranız dərindir
Deməm dərin deyil
Tıpkı bizim kimi.

Bu olaylarda bütün Dünya
Gözü önündə vuruldunuz
Ama kimsə səsini çıxartmadı.

Yüzlərcə Təzə Hurmatuda
Kurşuna düzülən
Gənç Türkmənləri
Şəhid etdilər
O, zalım rejim adamların
Qırılmış əlləriylə,
Ürəyi olan
Onlara acıdı
canlar və sümükləri
Birbirinə qarışdı
Ayni Hələpçədə
Düşən şəhidləri kimi
Canla tənləri tanınmadı
O, düşən şəhidlərin
Ət sümüklər toplanaraq
Cənnəttə ....
Təzə Hurmatu
Və Hələpçə ilə
Ənfal şəhidləri
Birləşdilər və qol qola
Ataraq öpüşürlər.

İnanın könlümüzdə açılan yara
Çok dərin və böyükdür
Bizlərdə də rejim adamlara
Az zülüm etmədilər
Asimilasyon siyasəti
Qədərincə uyguladılar
Və çox dəyərliləri
Qayb ettik, itirdik

Sizidə kor olmuş
yasak olan ...
Napalım və uluslar arası
Yasak bombalar
Və insan hakları xaric
Kimyasal və Biolojik
Silahlarla sizləri vurdular
Kimsə gəlmədi
bu zülmü durdurmağa
Kimsədə səsini belə çıxartmadı
İstədikləri qədər
Vurdular, güldülər və öldürdülər.
Bu insanlıqdan uzaq olaylar
Sizləri Dünyaya tanıtdırdı
Ənfal və Hələpçə olayları
Kürd xalqının simvolu oldu.
Verdiyiniz
Hələpçə, Balisan və Barzanda
Və verdiyimiz Ərbil, Kərkük
Köprü, Talafar və Tuz Hurmatuda
Bütün şəhidlərimizin
Tökülən qanları bir olub
onların sayəsində
Azad və ozgür olduq
özgür parlamentimiz
və Hökumətimiz vardır
Bu kutsal şəhidləri unutmamalıyıq
Onlar ölümsüz oldular
Və özgürlük məşəllərini yandırıb
Yollarımızı
İşıqlandırdılar, aydınlatdılar
Bizlərdə onların izindəyik.

Yaşasın XalqlarınBirliyi ...
YaşasınXalqların Qardaşlığı ...
Yaşasın İnsanlığın Özgürlüyü.




AX FELEK!..

Ax felek, wax felek, bê îtbar, felek,
Tu sîyar, em peya, te nagrin, felek,
Em hene, em dijîn, dizêrin, felek,
Carekê rûyê me bikene, felek.

Neyar hat, hebûn bir, şa bûyî, felek,
Em kaliyan, naliyan, seqiriy, felek,
Zar maşyan,dê giryan, ne hatî, felek,
Carekê rûyê me bikene, felek.

Kasil bûn, rêncîyan dûmeka, felek,
Afrîkê zengê reş aza bûn, felek,
Netirse xemêd me sivike, felek,
Carekê rûyê me bikene, felek.

Tew millet, bûn xweyî mal-rusqet, felek,
Erd yê me, em mane bê welat, felek,
Em dimrin, tu dîsa kivş nabî, felek,
Carekê rûyê me bikene, felek.

Mirî çûn, em zindî hûrxwaş bûn, felek,
Tirbên me bin tanga pêpez bûn, felek,
Kanên me neyara kişandin, felek,
Carekê rûyê me bikene, felek.

Mergên me, deştên me, bedewin, felek,
Mal ya me, em têda firarin, felek,
Avên me dikişin, em tîne, felek,
Carekê rûyê me bikene, felek.

Me Rustem da, Sulheddîn da, ingirîy, felek,
